# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

29 avqust 2019-cu il
Cümə axşamı

№ 33 (3448)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.



## PREZİDENT İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.

Dövlətimizin başçısı Yusif bin Əhməd Əl-Osayminin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndirib və Azərbaycanla əməkdaşlığa verdiyi önəmə görə ona təşəkkürünü bildirib.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox mühüm üzvü olduğunu vurğulayan qonaq ölkəmizin dünyada sülhün və təhlükəsizliyin, o cümlədən müsəlman aləmində İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfəsinin əhəmiyyətini qeyd edib.

Görüşdə ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqun genişləndirilməsində mühüm rol oynadığı qeyd edilib, Azərbaycanın dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitində birgə yaşadığı nümunəvi ölkə olduğu bildirilib, Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## AHILLARIN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ, SAĞLAMLIQLARININ QORUNMASI HƏR ZAMAN DİQQƏT MƏRKƏZİNDƏDİR



Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bilgəhdəki Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində olublar.

Birinci vitse-prezident Mehriban Əliyeva əvvəlcə burada sağlamlığı məhdud insanların yaşayışı ilə maraqlanıb, onlarla söhbət edib.

Müəssisə sakinləri ilə görüşdə ahıl insanlar dövlətin onlara diqqət və qayğısından razılıqlarını bildiriblər, rahat yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğulayıblar. Qeyd olunub ki, müəssisənin sakinləri arasında yaradıcı insanlar, müxtəlif sənət sahibləri var. Burada yaşayan ahıllar müxtəlif səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün mütəmadi olaraq konsertlər, bayram şənlikləri təşkil olunur.

Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində hazırda 235 nəfər yaşayır.

Azərbaycan dövləti tərəfindən yaşlı nəslə xüsusi diqqət və qayğı göstərilir. Dövlətimiz onların ən böyük himayəçisidir. Ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə ölkəmizdə davamlı tədbirlər həyata keçirilir.

***Ölkəmizin rəhbəri avqustun 21-də Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 21-də Sabir Nağı oğlu Nağıyevə general-leytenant ali hərbi rütbəsi verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 21-də Bəhlul Lətif oğlu Əliyevə general-mayor ali hərbi rütbəsi verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

***Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyev Ukraynanın milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Vladimir Zelenskiyə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

***Avqustun 26-da ölkəmizin rəhbəri dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 26-da anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə Şeyxülislam Allahşükür Paşazadəyə təbrik məktubu göndərib.***

**Avqustun 26-da Heydər Əliyev Mərkəzində bir qrup məcburi köçkünün iştirakı ilə tədbir keçirilib.**

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib və ad gününü onlarla birlikdə qeyd edib.**

***Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak ediblər.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.***

***Birinci vitse-prezident Mehriban Əliyevaya məsciddə müqəddəs Qurani-Kərim hədiyyə olunub.***

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəni anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə təbrik edib.**

## LAYİQLİ XİDMƏT, YÜKSƏK QİYMƏT

*Yüksək xidməti və insani keyfiyyətləri, peşəkarlığı ilə şəxsi heyət arasında böyük nüfuz qazanmış respublika Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin 60 yaşı tamam oldu. O, xidmət etdiyi 38 ildə bir çox uğurlara imza ataraq gənclik həvəsi, novatorluğu, zəhmətsevərliyi, idarəçilik bacarığı ilə şəxsi heyətə həmişə nümunə olub.*

*Avqustun 26-da yubileyi münasibəti ilə İsmət Əliyevi qəbul edən Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, insani keyfiyyətlərini xüsusi vurğulamış, üzərinə düşən mühüm vəzifələrin icrasında yüksək təşkilatçılıq və idarəetmə bacarığı nümayiş etdirdiyinə, şəxsi heyətin anda sədaqət ruhunda tərbiyəsində, bilik və bacarıqlarının, peşə vərdişlərinin artırılmasında xidmətlərini diqqətə çatdırmış, təltif olunduğu DİN-in "Fəxri fərman"ını ona təqdim etmişdir.*

*Yüksək diqqət və etimada, barəsində deyilən xoş sözlərə görə Daxili İşlər nazirinə minnətdarlığını bildirən polis general-leytenantı İsmət Əliyev əmin etmişdir ki, qarşısında duran vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, bunun üçün təcrübəsini, bilik və bacarığını əsirgəməyəcəkdir.*

*İsmət Rəşid oğlu Əliyev 1981-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu fərqlənmə diplomu, sonradan Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını yüksək göstəricilərlə bitirmiş, daim öz üzərində çalışaraq, bilik və bacarığını xidmətin təkmilləşdirilməsinə, onun inkişafına, kadrların hazırlanmasına sərf etmişdir.*

*DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin rəis müavini, nazirliyin Baş Kadrlar İdarəsinin rəisi kimi mühüm vəzifələrdə yüksək təşkilatçılığı və idarəçiliyi ilə göstərilən etimada layiq olduğunu təsdiqləmiş, 2014-cü ildə isə Daxili İşlər nazirinin müavini kimi çox məsul vəzifəyə irəli çəkilmişdir.*

*Harada işləməsindən asılı olmayaraq, o, göstərilən etimadı doğrultmuş, həvalə olunan vəzifələri layiqincə yerinə yetirmişdir. Polis general-leytenantı İ.Əliyevi fərqləndirən cəhətlərdən biri də qazandığı zəngin təcrübəni ustalıqla xidmətə tətbiq etməsi, üzərinə düşən vəzifələri özünəməxsus dəst-xətlə yerinə yetirməsi, dövrün çağırışlarına vaxtında və çevik cavab vermək bacarığıdır.*



*Onun xidməti uğurları ölkə və DİN rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmiş, dəfələrlə müxtəlif mükafatlara layiq görülmüş, "Vətən uğrunda" medalı, 2-ci və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunmuşdur.*

*İlham Babayev*
*Foto Zeyni Hüseynovundur*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Avqustun 26-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Polis Akademiyalarında təhsil almaq üçün ezam ediləcək kursantları və onların valideynlərini qəbul etmişdir.**

Qarşıdakı 5 il ərzində Azərbaycan Polisini Rusiyada təmsil edəcək gəncləri, eləcə də onların valideynlərini təbrik edən nazir son illər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasətinin həyata keçirilməsində də böyük nailiyyətlərin qazanıldığını, dövlət başçımızın çıxış və nitqlərində Azərbaycanın parlaq gələcəyinin məhz yüksək intellektə, müasir dünyagörüşə malik, bacarıqlı, dövlətçiliyə sadiq vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını bildirmişdir. Ölkə rəhbərliyinin gənclərə hər zaman böyük diqqət və qayğı göstərdiyini xatırladan nazir yüksək mənəviyyatlı, işgüzar və istedadlı gənclərin ölkəmizin ictimai-siyasi həyatında daha geniş şəkildə təmsil olunmaları, onların dövlət idarəçiliyində xidmətdə irəli çəkilmələri üçün bütün zəruri addımların atıldığını diqqətə çatdırmışdır.

Sonra DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov məlumat vermişdir ki, iki ölkənin Daxili İşlər Nazirlikləri arasındakı razılaşmaya əsasən, bu il Azərbaycan DİN-ə Volqoqrad və Nijeqorodsk şəhərlərindəki Polis Akademiyalarında 9 yer ayrılmışdır. Həmin yerlərə qəbul üçün elan edilmiş müsabiqəyə 24 namizəd qatılmışdır. Nazirliyin müvafiq komissiyası tərəfindən müsabiqə tam şəffaflıq şəraitində keçirilərək namizədlərin Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində topladığı balları, rus dilində yazı qabiliyyəti və şifahi nitq bacarıqları, eləcə də fiziki hazırlığı əsas götürülmüş, yekun olaraq ən layiqli 9 abituriyent seçilmişdir.

Nazir, general-polkovnik Vilayət Eyvazov həyatlarında ən əlamətdar günlərdən biri – kursant adına layiq görülmələri münasibətilə onları təbrik etmiş, çətin və şərəfli xidmətlərində, təhsildə uğurlar arzulamışdır. O, gənc əməkdaşlara Vətənimizin, eləcə də Azərbaycan Polisinin adını daim uca tutmağı, eyni zamanda, bilik və təcrübələrini, peşəkar və fiziki hazırlıq səviyyələrini artırmalarını, daim öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini tövsiyə etmişdir.

Nazir əmin olduğunu bildirmişdir ki, Rusiyanın Polis Akademiyalarına göndərilən gənclərimiz orada mükəmməl təhsil alaraq müasir texnologiyalarla işləmək bacarığına yiyələnəcək, Vətənə qayıdıb cinayətkarlığla mübarizədə, ictimai asayişin təmin olunmasında, vətəndaşlarımızın qanunla qorunan hüquq və mənafelərinin keşiyində duracaqlar.

*26 avqust 2019-cu il.*

# ONLAR DA TƏŞƏKKÜR EDİRLƏR...

**Müasir texnologiyaların inkişaf etdiyi dövrümüzdə məktublar öz aktuallığını qoruyub-saxlayır. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün vətəndaşlardan çoxsaylı məktublar daxil olur. DİN rəhbərliyinə ünvanlanan bu məktubların mövzusunu qanunun aliliyi prinsipinin hər zaman uca tutulması, Azərbaycan Polisinin ictimaiyyət arasında böyük nüfuza malik olması təşkil edir. Onlardan bir neçəsinin istəyini diqqətinizə çatdırırıq.**

**Təqaüddə olan polis veteranı Rafiq Məmmədəliyev** yazır: "Səhhətimdə yaranan problemlər məni çox narahat edirdi. Ağrı-acı məni üzürdü. DİN-nin A.Heydərov adına Respublika Hospitalına üz tutdum. Hospitalın tibbi personalının səyi nəticəsində sağlamlığıma qovuşdum. Mənə göstərilən yüksək diqqət və qayğıya görə minnətdaram və sevinirəm ki, ölkəmizdə tibb bu dərəcədə inkişaf edib".

**Quba rayon sakini Səxavət Məmmədov** müraciətinə tez bir zamanda baxılaraq, probleminin həllini tapmasında ona göstərdikləri köməyə görə Rayon Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Şabran rayon sakini Etibar Kamilov** yolda köməksiz vəziyyətdə qaldığı zaman ona göstərdikləri köməyə görə polisə minnətdarlığını yazır və uğurlar diləyir.

**Göyçaydan Ceyhun Mütəllimov** ictimai qaydanın və təhlükəsizliyin qorunmasına, cinayətkarlıqla mübarizənin təmininə görə Azərbaycan Polisinin fəaliyyətini yüksək dəyərləndirir.

**Bərdə rayon sakini Rəhilə Hacıyeva** içərisində olduğu mikroavtobusda yaranan nasazlığın aradan qaldırılmasında göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını bildirir.

**Quba rayonundan Vidadi Əhmədov və İsmayıllıdan Füzuli Nadirov** onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə həmkarlarımıza "sağ olun" deyirlər.

**Bakı şəhər sakini Cəmilə Mehdiyeva** övladına göstərilən köməyə görə DİN rəhbərliyinə minnətdarlığını yazır.

**Bərdə rayon sakini Qarabağ əlili Elbrus Rüstəmov** vəzifə borclarını layiqincə yerinə yetirən, ölkəmizdə sabitliyi, əmin-amanlığı qorumaq üçün gecəli-gündüzlü xidmət aparan həmkarlarımıza xidmətlərində uğurlar arzulayır.

**Daha bir paytaxt sakini Solmaz Kazımova** isə öz məktubunda övladının təhsil aldığı DİN-in Polis Akademiyasında yaradılan şəraitdən razılığını bildirir.

*N. Aytəkin*

# ƏSRİN DƏ, ÖMRÜN DƏ YARISI HƏLƏ QABAQDADIR

**DİN-in Polis Akademiyasında baş inspektor-korrektor vəzifəsində xidmət etsəm də çalışırdım ki, keçirilən bütün tədbirlərdə iştirak edim. "Məzun günü"nün aparıcısı kimi məsuliyyətli bir işin öhdəsindən tək gələ bilməyəcəyimi, həm də xidmətimin ilk ili olduğunu nəzərə alan rəhbərlik "Sənə polis polkovniki Hacı Aslanov kömək edəcək" deyəndə, düzü, uşaq kimi sevinmişdim...**



Məşqlər pis getmirdi. Mən yazılmış mətni oxuyur, Hacı müəllim komandaları verirdi. Bir dəfə üzrlü səbəbdən təlimdə, kazarmada qeyd edəcəkdi...

Həmsöhbət olduqlarım, məşqdə iştirak edə bilmədi və həmin gün necə sıxıntı keçirdiyim heç vaxt yadımdan çıxmaz.

İlk sınaqdan uğurla çıxdım. Tədbirdən sonra "İldən-ilə püxtələşirsən, artıq "komandir səsin" formalaşıb, indi meydan sənindir",- deyərək o, ehmalca çiyinlərimə toxundu.

Mən onu həmişə səmimi və təmkinli görmüşəm. **Polis polkovniki Hacı Aslanov** tanıyanların da dediyi kimi, heç dəyişməyib. Dəyişən illərdir.

Bu günlərdə akademiyaya yolum düşəndə onu soruşdum. Dedilər ki, birincilərlə Daxili Qoşunların "N" saylı hərbi hissəsindədir. Zəng vurub hal-əhval tutdum. O, 50 yaşını bu il də gələcəyin polis zabitləri ilə yetirmələri Hacı müəllimin tələbkarlığından, eləcə də qayğıkeşliyindən, insanpərvərliyindən söhbət açdılar.

Müəllimin, komandirin xoşbəxtliyi onun belə xatirlanmağıdır...

50 yaşının tamam olması, əslində, bu könül yazısına bəhanə oldu və haqqında bildiklərim düşüncələrimi ipə-sapa düzməyə kömək etdi...

**Hacı Hüseynağa oğlu Aslanov** 1969-cu ilin sentyabrında Bakıda doğulub. 1986-1991-ci illərdə Kiyev Ali Hərbi Tank Mühəndisləri Məktəbində təhsil alıb. 1999-cu ildə Ankarada "Kara Küvvetleri Komutanlığı egitim və yönəticisi, uzmanı və Öyretmen yetişdirmə Kursu"nu bitirib. 1994-2002-ci illərdə Daxili Qoşunların Baş İdarəsində və Qala Tədris Mərkəzində işləyib.

Hazırda Polis Akademiyasında Hərbi kafedranın rəisidir...

Həyatda çox şey ilk addımdan başlayır. Onun bu fikrə isə bir başqa cür yanaşması var: "Biz burada kursantlara hüquq elminin sirlərini öyrədirik. Professor-müəllim heyətinin hər bir kursantdan tələbi yaxşı oxumaq, imtahanlardan uğurla keçmək və ali tədris ocağını bitirdikdən sonra onu işlədiyi və getdiyi hər yerdə layiqincə təmsil etməkdir. Kafedranın müəllim-komandir heyətinin də onların polis əməkdaşı kimi yetişməsində zəhməti az deyil və çalışırıq ki, atılan hər bir addım yetirmələrimizə uğur gətirsin".

***Dəyərli həmkarımız, əziz yubilyar, nə yaxşı ki, sıralarımızda sizin kimi insanlar var. "50" yaş sözündən heç tədirgin olmayın, hələ əsrin də, ömrünüzün də yarısı qabaqdadır...***

*Hafiz Təmirov,*
*polis mayoru*

# POLİS OLMASAYDI...

**Hamı nəfəsini içinə çəkib bu mənzərəni seyr edirdi. Ancaq yaxınlaşmağa kimsə cürət etmirdi. Səhər saatlarında Salamzadə küçəsindəki körpünün üstünə çıxan gənci fikrindən döndərməyə bir-iki nəfər cəhd etsə də uğursuz alınmışdı...**



Xeyli adamın körpünün altına yığıldığını görəndə əvvəlcə elə bildi ki, yol qəzası baş verib. Avtobusdan düşüb ətrafa göz gəzdirdi. Və birdən hamı onu dövrəyə alıb körpünün üstündəki gənci göstərib fikrindən döndərməyi xahiş etdilər. Çox çətin anlar idi, bir gəncin həyatı tükdən asılmışdı.

Hadisə barədə rəhbərliyinə məlumat verdi. Əvvəlcə hamının ətrafı boşaltmasını xahiş etdi. İnsanlar dağılışmağa başladılar. Məqsədi gəncin fikirini özünə çəkmək və bununla da ona psixoloji təsir etmək idi.

Planlaşdırdığı kimi ona yaxınlaşdı.

-Qardaş, sabahın xeyir.

-Sabahın xeyir.

-Nə olub, niyə belə bir addım atırsan? Bir dərdini de, problemini de, bəlkə kömək edə bildim. Canına qıymağa nə əldə edəcəksən? Bizə sənin kimi gənclər lazımdı. Bax, özünü atdın, sonra nə olacaq, heç düşündün?

-Yaşamaq istəmirəm. Ailəm yox, qohum-əqrəbam yox, özümdə "internatda" böyümüşəm. İşim, təhsilim də yoxdur. Mən heç kəsə lazım deyiləm...

-Ətrafına bax. O insanlar sənin üçün narahatdırlar. Onlar səni qorumaq istəyirlər. Mən də sənə kömək edərəm. İş də tapılar, sahib çıxan da...

Şəhriyar bir az da ona yaxınlaşdı. Aralarında bir addım məsafə vardı. Samir yerə çöməlib ağlamağa başladı. Şəhriyar onu ayağa qaldırıb bağrına basdı...

Alqış səsləri xeyli müddət kəsilmədi. Polis bir insanın da həyatını qurtarmışdı, həmişə olduğu kimi...

**Polis serjantı Şəhriyar Zeynallı 1990-cı ildə Kürdəmir rayonunun Pirli kəndində doğulub. DİN-in Polis Akademiyasını bitirib. H.Əliyev adına Bakı Neft Emalı Zavodunun Mühafizəsi üzrə Polis İdarəsinin polis nəfəridir.**

"Əməkdaşlara həmişə tövsiyə olunur ki, xidmətdə ayıq-sayıq olsunlar, nizam-intizama ciddi əməl etsinlər. Bütün bunlarla yanaşı, onlar insanların da həyatını qurtarmaq üçün hətta özlərini təhlükəyə atırlar",- deyən rəis, polis polkovniki Canpolad Cabbarovun fikrinə dəstək verən xidmət üzrə rəis müavini, polis polkovnik-leytenantı Arif Rüstəmov da bu fikirləri söylədi: Şəhriyar da polisin insanlara təhlükədən daha yaxın olduğunu göstərdi. Sıralarımıza qoşulan hər bir gənc polisin məsuliyyətli, həm də şərəfli peşə olduğunu yaxşı bilir. Bu peşənin əsas özəlliyi odur ki, çevrəndəki hər bir kəsin təhlükəsizliyinə cavabdehsən. Çünki sənə inanırlar və etibar edirlər. Bax, bu inam və etibardır polisi çətinliyin, hətta ölümün belə üstünə qorxusuz getməsinə ürəkli edən".

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# TARİXİMİZƏ VƏ TALEYİMİZƏ MİSİLSİZ XİDMƏT

**Ziddiyyətli geosiyasi maraqlar fonunda dünyada son illər baş verən qlobal iqtisadi böhranların, geosiyasi çaxnaşmaların təsirinin Azərbaycandan da yan keçmədiyi şəraitdə ölkəmizin dayanıqlı sosial, iqtisadi inkişafının təmin olunması ümummilli liderin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün tələbinə uyğunlaşdırılaraq mükəmməl səviyyədə davam etdirilməsi sayəsində mümkün olmuşdur.**

Ötən illər ərzində ölkənin makroiqtisadi sabitliyi nəinki qorunub-saxlanılmış, eyni zamanda, iqtisadi potensialı daha da gücləndirilmişdir. İqtisadi inkişaf, yoxsulluq səviyyəsinin azalması ilə yanaşı, ölkənin simasının dəyişdirilməsi, müasirləşməsi sahəsində möhtəşəm layihələr həyata keçirilmişdir. Paytaxtla yanaşı, regionlar da inkişaf etdirilmiş, insanların yaşamaq və işləmək şəraitinin kökündən yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Azərbaycan dövlətinin qüdrətinin artması, ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, ordunun döyüş qabiliyyətinin yüksəlməsi ötən dövrün ən əlamətdar nailiyyətləri sırasında layiqli yer tutur. İnsan hüquq və azadlıqlarının, mədəni və mənəvi irsin qorunması, tolerantlığa bağlılıq, dünya birliyinin prioritet saydığı siyasi və mənəvi dəyərlərə sədaqət Azərbaycanı bölgənin lideri səviyyəsinə qaldırmışdır.

Ölkəmizdə həyata keçirilən və hər bir insanın həyatında özünü göstərən, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində gerçəkləşən layihələrdə milyonlarla insanın ümid və pənah yerinə çevrilmiş Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır.

2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Haqqı müdafiə etmək, milli-mənəvi dəyərləri qorumaq, mədəniyyətimizlə, humanistliyimizlə milli varlığımızı dünyaya çatdırmaq kimi missiyaları həyata keçirən Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın zəhməti, gördüyü işlər misilsizdir. Qısa zamanda böyük uğurlara imza atan, inkişafyönümlü layihələri gerçəyə çevirən fond Azərbaycanı beynəlxalq miqyasda da layiqincə təmsil edir, ölkəmizin sülhsevər, demokratik imicini daha da möhkəmləndirir, beləliklə, həm də onun milli mənafelərini qoruyur.

Təkcə Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyac duyanların yanında olan Heydər Əliyev Fondu ulu öndərin ideallarını, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tövsiyə və göstərişlərini rəhbər tutaraq ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa sanballı töhfələrini verir, habelə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz işlər görür.

*A. Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# AZƏRBAYCAN POLİSİ AVROPA POLİSİNDƏN DƏ ÜSTÜN VƏ PEŞƏKARDIR

## Həm sabitliyin təminatı və cinayətkarlığa qarşı effektiv mübarizəyə, həm də vətəndaş məmnunluğuna görə…

***İctimai sabitlik, asayiş, milli təhlükəsizlik hər bir dövlətin mövcudluğunun əsas şərti olmaqla bərabər inkişafının vacib zəmini, vətəndaş rifahının mühüm amilidir. Son onillikdə biri-birinin ardınca tənəzzülə uğrayan, əhalisi savaşlarda, terrorda məhv edilən, ən yaxşı halda miqranta çevrilən ölkələrin timsalında bu həqiqəti aydın görmək olar.***







### "Qoca qitənin" kriminal siması

Bu baxımdan Azərbaycan nümunəsi dünyada ən yaxşılardan biri sayılır. Sabitlik adasına çevrilən məmləkətimizdə kompleks halda ictimai təhlükəsizlik mükəmməl səviyyədə qorunur, fərdi hallarda isə vətəndaşın həyatı, mülkiyyəti, əmlakı etibarlı mühafizə olunur. Digər ölkələrlə eyni vəziyyətin müqayisəsi Azərbaycanın üstünlüyünü aşkar nümayiş etdirir və ölkəmizin kriminogen vəziyyətə tam nəzarət, asayişin təmini sahəsində də örnək model yaratdığını göstərir.

Xarici ölkələrə səfərlər müddətində apardığımız müşahidələr ilə də bu təəssürat əyani dolğunlaşır. Lakin bəzən xaricdə elə xoşagəlməz halla üzləşirsən ki, nəinki Azərbaycandakı vəziyyətin daha yaxşı olmasına inanırsan, hətta çox hallarda həsəd apardığımız Avropanın, əslində, nəzarətsizlik nəticəsində total cinayətkarlıq yuvasına çevrildiyinə əmin olursan. Elə "Avropanın ən təhlükəsiz, sabit ölkəsi" kimi qəbul edilən Monteneqroda başımıza gələn hadisələr "qoca qitənin" kriminal məkana çevrildiyini, ən əsası isə hüquq mühafizə orqanlarının bu hallara qarşı əsla mübarizə aparmadığını bir daha təsdiqlədi.

Çimərlik ərazisində içərisində telefonlar, müvafiq sənədlər və pul qabının olduğu səfər çantası oğurlandı. Polisə məlumat verilərkən məlum oldu ki, 8 km sahil xətti ərazisində xidməti fəaliyyət göstərən bir əməkdaş belə yoxdur. Yəni on minlərlə insanın dincəldiyi geniş məkan tam nəzarətsizdir. Budva şəhər polisinə gedərək hadisə barədə məlumat verərkən müstəntiq faktı qeydə almaqdan imtina etdi: "Onsuz da heç nə tapılmayacaq, buna cinayət işi açmağa ehtiyac yoxdur, itki ilə barışın" deyərək bizi heyrətləndirdi. Fəqət heyrətimiz bununla bitmədi, əslində, polis laqeydliyi yeni başlayırdı.





Ciddi israrlardan sonra məsələni rəsmiləşdirməyə razılıq verdi, ancaq faktı oğurluq yox, itki kimi yazmağı təklif etdi. Kəskin etirazımızdan sonra protokol tərtib olundu, ancaq o da yarımçıq... Növbəti etirazdan sonra telefonların "imey" kodunun və ərazinin kamera nəzarəti altında olduğunun qeyd edildiyi ikinci protokol yazıldı. Ağlımız Azərbaycana getdiyindən müstəntiqə cinayəti "isti izlərlə" açmaq üçün dərhal kameraya baxmağı və telefonların "imey" kod vasitəsilə nəzarət altına alınmasını, yaxud bloklanmasını təklif etdik. Müstəntiq heyrətləndirməkdə davam edirdi: "Kameraya baxmağa nə ehtiyac? Orada tutaq ki, kimisə gördük, bu qədər adamın arasından onu necə tapacağıq? "İmey" kod nəzarəti, bloklanma isə əhəmiyyətsiz işdir. İstirahətinizin qalan vaxtını maraqlı keçirin. Stresdən uzaq olun, itkini qəbul edin".

Hüquqşünasla, yoxsa psixoloqla söhbət etdiyimizi özümüz üçün aydınlaşdırarkən məlum oldu ki, oğurluq və itki hallarında polisin əməliyyat tədbirləri ümumiyyətlə aparılmır. Kim insafa gəlsə tapdığı əşyanı polisə gətirə bilər. 4 gün ərzində hər dəfə polisə müraciət etdikdə, nəinki əməliyyat tədbirlərinin keçirilmədiyini, heç ümumiyyətlə kameraya baxmadıqları məlum oldu. Hər dəfə idarə qarşısında onlarla polisin kart oynadığını, parkda dincəldiyini, kabinetlərində mürgülədiklərini gördük. Görünür, onlar üçün istirahət xidməti fəaliyyətin "əsasını" təşkil edir.

### Qərbdə polis niyə cinayətkarı yox, onun qurbanını ittiham edir?

Bir məqamı da vurğulayaq ki, məsələdən xəbərdar olan Azərbaycanın Monteneqrodakı Diplomatik Nümayəndəliyinin rəhbəri, müşavir Mahir Cəfərov cinayət işinin operativ araşdırılması məqsədilə elə həmin gün bu ölkənin Daxili İşlər Nazirliyinə və ardınca Budva şəhər polis idarəsinə müraciət etdi. Nümayəndəliyin əməkdaşı, üçüncü katib Orxan Əliyev iki dəfə (həmin gün və sonradan yenə də) şəxsən polis idarəsində oldu. Onlara da qeyri-müəyyən cavablar verildi. Və nəticə indiyədək də yoxdur...

İtkinin maddi tutumu nə qədər böyük olsa da, polisin cinayət faktına biganə, xidməti fəaliyyətinə məsuliyyətsiz yanaşması, vətəndaş müraciətlərini qulaqardına vurması daha ağrılı idi!

Bəlkə də bir fakta görə hansısa ölkənin hüquq mühafizə orqanlarının fəaliyyətini təhlil etmək düzgün sayılmaz. Ancaq apardığımız müşahidələr və bu hadisə ilə bağlı təəssüfünü bölüşən digər xarici turistlərlə söhbətimiz nəticəsində aydın oldu ki, qarşılaşdığımız acı mənzərə nəinki Monteneqronun, ümumilikdə Avropanın polis fəaliyyətinin gerçək mənzərəsidir. Məsələn, bir turistin İtaliyada otelin qarşısından çoxsaylı kameranın nəzarətində olan yerdən çemodanı oğurlanıb. Amma polis nə kameraya baxıb, nə də əməliyyat işi aparıb. İspaniyada cibindən pul kisəsi oğurlanan birini isə polis "cibinə, puluna nəzarət edə bilmirsən, günah sənin özündədir" deyə ittiham edib və hadisəni qeydə almayıb. Almaniyada isə günün günorta çağı soyulan şəxsi polis "kriminal məhəlləyə girməkdə" məzəmmət edib, "faktı qeydə alırıq, ancaq oğurlanan əşyalarının geri qayıdacağını gözləmə" deyərək qapını göstəriblər.

Bu və digər hadisələri dinlədikcə Avropada, eləcə də ABŞ-da polisin fəaliyyətsiz bir quruma çevrildiyi, kriminogen duruma nəzarət etmədiyi, bir sözlə, cinayətkarların və cinayətkarlığın qarşısında mübarizə aparmadan təslim olduğu qənaəti daha da qətiləşir.

### Azsaylı polislə daha səmərəli fəaliyyət

Əsl həqiqət müqayisədə üzə çıxır. Bəs bu vəziyyətlə Azərbaycanda qarşılaşsaydıq, proses necə gedəcəkdi?

Əvvəla, Azərbaycanda daxili işlər orqanlarının maddi-texniki təchizatı, infrastrukturu elə yüksək səviyyədədir ki, bütün ərazilər müvafiq təyinatlı polis xidmətlərindən (mühafizə, çevik polis, post-patrul və s.) başlayaraq sahə polis məntəqələrinədək tam nəzarət altına alınır. Monteneqroda olduğu kimi, 8 kmlik sahil ərazisi nəinki nəzarətsiz qala bilir, Azərbaycanda o məkanda azı bir polis məntəqəsi və 10-15 əməkdaş fasiləsiz nəzarət funksiyası həyata keçirir.

Yeri gəlmişkən, bəzən "Avropanı gəzdik, nə bir yerdə, nə bir yolda polis gördük. Deməli, belə də olarmış və problem də yaranmazmış" deyənlərlə rastlaşırıq. Amma faktların timsalında təsdiqini tapan odur ki, əslində, polis nəzarətsizliyi ciddi problemlərə rəvac verir, vətəndaş cinayət halı ilə üzləşdikdə dərhal onu qoruyacaq, təhlükədən xilas edəcək operativ mühafizə sistemi olmur.

Əslində, Azərbaycanda polisin sayı çox deyil. Statistikaya görə, polis əməkdaşlarının sayı ilə əhalinin say nisbəti uzlaşdırıldıqda Azərbaycanda daxili işlər orqanlarının şəxsi heyəti Avropanın istənilən ölkəsi ilə müqayisədə azdır.

Sadəcə, onlarda polis fəaliyyətini ofisdə masa arxasında, ya kondisionerin, ya da qızdırıcının qarşısında mürgüləməklə "icra" edir. Azərbaycanda isə polis səhərdən axşama, gecədən sübhə qədər postda, ərazidə, ictimai asayişin keşiyindədir. Yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyir, küçələrdə rahatlığı təmin edir, bədnam ünsürlərə əl-qol açmaq imkanı vermir.







Hər kəs bayram günlərində ailəsini başına yığıb istirahət etdikdə Azərbaycan polisi gücləndirilmiş rejimə uyğun olaraq işə çıxır, təhlükəsizliyimizin etibarlı keşiyində dayanır, rahat bayram keçirməyimizi təmin edir.

Binada qəza baş verəndə polis əməkdaşı yanğına məhəl qoymayaraq içəri daxil olur, canı bahasına insanları xilas edir. Çaylarda sellər daşanda daxili işlər orqanlarının əməkdaşları yenə də öndə olur, xilasedici, bənd möhkəmləndirmə işlərində yardımlarını əsirgəmirlər.

Bizim asayişimiz üçün düşünmədən canlarını qurban verirlər, dövlətin təhlükəsizliyini qorumaq naminə sinələrini sipər edirlər, müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyir, cinayətkarı bir həmlədə zərərsizləşdirirlər.

Onlar şəhiddir, şəhid övladlarıdır və yeni savaşda şəhid olmağa hazır qəhrəmanlardır...

### Avropada polis vətəndaşın yanında deyil, tam əksinə, qarşısındadır

Avropa polisinin fəaliyyətini təhlil edərkən bir anlıq sanki Azərbaycan daxili işlər orqanlarının 1990-1993-cü illərdəki fəaliyyətini xatırlayırsan. Oxşarlıq həddən çoxdur...

Avropada polis baş vermiş cinayətləri nəinki araşdırmaqda, heç qeydə almaqda belə maraqlı deyil. Azərbaycan polisi isə bu prosesi tam şəffaflaşdırıb. Polis idarələrinə, məntəqələrinə müraciətdən əlavə vətəndaşlar üçün "102-Zəng Mərkəzi" xidməti effektiv fəaliyyət göstərir. Bir fakta nəzər salaq. Yalnız elə ötən il bu xidmətə daxil olan məlumatlar əsasında 1801 cinayət "isti izlər"lə açılıb, 9435 hüquqazidd əməlin qarşısı alınıb.

Yaxud baş vermiş cinayəti araşdırmaq üçün kameraya baxmağa lüzum görməyən avropalı polislərin azərbaycanlı həmkarları tərəfindən "Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə ötən il 566 cinayət işi açılıb, 20480 hadisə aşkarlanıb, axtarışda olan 90 avtomobil saxlanılıb.

Avropada daxili işlər orqanları informasiya texnologiyalarından (baxmayaraq ki, əksəriyyəti elə öz istehsallarıdır) tam gücü ilə istifadə edə bilmir, adi telefonu blok etməkdə acizdir. Azərbaycanda isə xidmətin istisnasız olaraq bütün istiqamətlərini ən modern yüksək texnologiyalarla təmin edən polisimiz heyrət doğuracaq müasir metodlarla cinayətkarı bəzən elə "iş" başında yaxalayır.

Azərbaycan polisi üçün əməliyyat-axtarış tədbirlərində əsas nəticəni "isti izlər" müəyyənləşdirirsə, Avropada at izi ilə it izi hər zaman biri-birinə qarışır.

Avropa ölkələrində açılan cinayət işlərinin faiz göstəricisi əksər hallarda heç 50 faizə çatmır, Azərbaycanda isə bu, ötən il 85 faiz təşkil edib.

Avropada polis üçün xarici diplomatların, turistlərin müraciəti heç bir əhəmiyyət kəsb etmir, onlar da gözardına vurulur, ölkələri barədə haqlı tənqidi mülahizənin yaranması veclərinə də deyil. Azərbaycanda isə diplomatların da, turistlərin də müraciətləri daha həssas nəzarətə götürülür, demək olar ki, baş vermiş cinayət dərhal araşdırılaraq nəticə əldə olunur.

Qərbdə daxili işlər orqanları öz fəaliyyətlərində vətəndaş məmnunluğunun təmini, ictimai rəyin öyrənilməsi, əhalinin müraciətlərinin araşdırılması və təcili tədbirlərin görülməsi kimi məqamlara ümumiyyətlə əhəmiyyət vermirlər. Azərbaycanda isə polisin fəaliyyətindən ictimai razılıq 90 faizi ötür, nazirdən polis sahə rəislərinədək hər biri mütəmadi vətəndaş qəbulları keçirirlər, çoxsaylı monitorinqlərlə əhalinin polisin fəaliyyəti ilə bağlı düşüncələri, rəyləri öyrənilir.

Avropada vətəndaş cinayətə məruz qaldıqda, həyatı, yaxud əmlakı zərər gördükdə polisə güvənmir, ondan imdad gözləmir. Bilir ki, burada onun pozulmuş hüquqlarına biganə yanaşılacaq. Azərbaycanda isə insanlar ümid, güvənc yeri kimi polisə müraciət edir, hüquqları da qorunur, cinayətkar da lazımi cəzasını alır.

Avropada malı, əmlakı oğurlanan şəxsi polis məsuliyyətsizlikdə ittiham edir, Azərbaycanda isə itirilmiş əşya həmin gün tapılmadıqda polisdən narazılıq edirlər, amma hər kəs əmin olur ki, 3-5 günə cinayətin üstü açılacaq.

Qərbdə polis vətəndaşın yanında deyil, tam əksinə, qarşısındadır. Vətəndaş polisə ehtiyac duyduqda onu tapa bilmir, ancaq hansısa etiraz üçün mitinqə çıxanda polis onun qarşısında rezin güllələrlə, gözyaşardıcı qazlarla, atları və itləri ilə dərhal peyda olur. Sanki Qərbdə polisin fəaliyyəti vətəndaşı yox, yalnız hakimiyyəti qorumaqdır.

### Azərbaycan polisinin uğurlu fəaliyyətini beynəlxalq hesabatlar da təsdiqləyir

Azərbaycanda isə polisin xidməti fəaliyyətinin yeganə qayəsi ictimai asayişi təmin etmək, cinayətkarlığa qarşı effektiv mübarizə aparmaq, dövləti hər cür təhdiddən qorumaq, vətəndaşın təhlükəsizliyini hifz etməkdir.

Azərbaycan polisi iqtidarı qorumur, çünki buna ehtiyac da yoxdur! İqtidarı xalq qoruyur və hakimiyyətə daxildən heç bir təhdid yoxdur! Bu iki gücün - xalqla iqtidarın vəhdəti danılmazdır, siyasi möhtəşəmlik nümunəsidir!

Xalq-iqtidar birliyinin nüvəsini təşkil edən faktorlardan biri də məhz Azərbaycan polisinin xidməti fəaliyyəti nəticəsində əldə olunan sabitlik, asayiş, təhlükəsiz həyatdır. 1994-cü ildən etibarən Heydər Əliyevin nəzarəti altında fəaliyyətini tam dəyişdirən, yeni keyfiyyət mərhələsinə qədəm qoyan daxili işlər orqanları üçün vətəndaşlarımız tam əminliklə "mənim polisim məni qoruyur" söyləyir.

Prezident İlham Əliyevin himayəsi altında fəaliyyətini daha da təkmilləşdirən, modernləşdirən polis orqanlarının fədakar xidməti nəticəsində Azərbaycanda ən böyük idman, mədəniyyət tədbirlərinin, beynəlxalq sammitlərin, konfransların təhlükəsizliyi tam təmin edilir, hər il yüz minlərlə turistin asayişi etibarlı qorunur.

Mülahizələrimiz, müqayisələrimiz bəlkə də subyektiv ola bilər. Amma obyektiv olduğuna əminik. Niyə? Çünki söylədiklərimizi, rəylərimizi beynəlxalq polis təşkilatlarının hesabatları da tam təsdiqləyir.

Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı baxımından Azərbaycan 10 ildən artıqdır ki, MDB və Avropa məkanında öncül mövqeyini saxlayır, ən təhlükəsiz və sabit dövlətlərdən biri kimi beynəlxalq hesabatlarda qeyd olunur!

Polisin fəaliyyətində bəyəm problem yoxdur? Əlbəttə ki, var! İş olan yerdə hansısa nöqsanların baş verməsi də təbiidir. Polisin fəaliyyətində də xidməti qəbahətə, nöqsana, çatışmazlıqlara rast gəlinir. Amma burada xüsusi diqqət ediləsi bir məqam var: bütün bu problemlər əksər hallarda məhz daxili işlər orqanlarının rəhbərliyi tərəfindən aşkarlanır. Onların qarşısının alınması üçün konkret addımlar atılır. Vəzifə öhdəliklərinə riayət etməyən əməkdaşlar cəzalandırılır, orqanlardan kənarlaşdırılır. Polis haqqında ictimai əhəmiyyət kəsb edən hətta ən epizodik rəy, fikir, iddia belə reaksiyasız qalmır.

Azərbaycan polisi fəaliyyətini bütün parametrlər üzrə yeni dövrün tələblərinə uyğun qurur. Dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

***Sabitliyimizi, asayişimizi, dövlətimizi, iqtidarımızı qorumaqla yanaşı, onların qədrini, dəyərini də bilməliyik.***

***Elə Azərbaycan polisinin də...***

**İxtiyar Hüseynli,**
**"Azərbaycan" qəzetinin şöbə redaktoru, respublikanın Əməkdar jurnalisti**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!




*Xəbər verildiyi kimi, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə 2017-ci ildə Daxili İşlər Nazirliyinin rəsmi veb saytında (www.mia.gov.az) yaradılaraq istifadəyə verilmiş xüsusi interaktiv pəncərə vasitəsi ilə vətəndaşlar adlarının mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu kimi axtarışda, eləcə də sərhədkeçməyə məhdudiyyət siyahısında olub-olmaması barədə məlumat əldə edə bilərlər.*

*Bunun üçün DİN-in* **mia.gov.az (http://mia.gov.az/?//content/liability)** *saytına daxil olub qeyd edilən elektron xidmət (Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış borclular barədə məlumatlar) seçilməli və açılan pəncərənin qrafalarına müvafiq şəxsi məlumatlar doldurulub təsdiq edilməlidir.*

*İnteraktiv pəncərədə axtarış iki variantda aparılmalıdır. Birinci variantda soyad, ad, ata adı və doğum tarixi qeyd edilməklə, digər variantda şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və şəxsin doğum tarixi göstərilməklə daxil edilən məlumatın düzgünlüyünə əmin olmaq üçün vətəndaşlara hər iki variant üzrə axtarış aparmaq tövsiyə olunur.*

*Əgər şəxs axtarışdadırsa qırmızı rəngdə "Diqqət, siz borclu kimi axtarışdasınız!" xəbərdarlığı ekranla çıxır və həmin şəxs barəsində məlumatlar, o cümlədən müraciət etməli olduğu polis orqanı göstərilir.*

*Vətəndaş borcunu müvafiq qaydada ödədikdə barəsində olan məhdudiyyət aradan qalxır.*

*Şəxs axtarışa elan edilməyibsə ekranın aşağı hissəsində yaşıl rəngdə "Axtardığınız parametrlərə uyğun borclu barədə məlumat yoxdur" informasiyası verilir.*

***Daxili İşlər Nazirliyi***




Daxili İşlər Nazirliyinin Atıcılıq Tirinin imkanlarından səmərəli istifadə etməklə şəxsi heyətin praktiki atışlara cəlb olunmasında məqsəd fiziki hazırlığın artırılmasına, cinayətkarlıqla mübarizəyə, ictimai asayişin və təhlükəsizliyin qorunmasına xidmət edir. Praktiki məşğələlərə qadın əməkdaşlar da cəlb olunublar.

Qeyd edək ki, atıcılıq kompleksinin tirləri tapança və avtomat silahlardan atəş üçün hədəf sistemləri, güllətutan metal qurğular, 18 nəfərin eyni vaxtda atəş açması üçün kabinələr, gülləkeçirməz şüşə ilə təchiz olunmuş operator otaqları, elektron hədəf və monitorlar, siqnalizasiya, havalandırma və digər zəruri kommunikasiya qurğuları ilə təchiz edilib.

# ŞƏXSİ HEYƏT PRAKTİKİ ATIŞLARA CƏLB OLUNUB

**Bakı Şəhər Baş Polis İdarəsinin şəxsi heyəti plana uyğun olaraq, avtomat silahlardan praktiki atışlara cəlb edilib, döyüş hazırlığının vəziyyəti yoxlanılıb.**



Bir günlük praktiki məşğələdə şəxsi heyətin nəzəri bilikləri, avtomat silahdan istifadə qaydaları və digər peşə vərdişlərinin vəziyyəti sınaqdan keçirilib.

# "Xəzri" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

"İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Bakı şəhər Baş Polis İdarəsinə bilavasitə tabe olan Bakı Metropolitenində Polis Şöbəsi vakant mülki işçi vəzifələrinə (polisə ictimai dəstək) xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə həqiqi hərbi xidmət keçmiş, yaşı 20-dən 25-dək, boyu 170 (qadınlar), 180 (kişilər) santimetr və yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, tam orta, orta ixtisas və ali təhsilli, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

# ELAN

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının rəhbərliyi ilə ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaq.

İctimai asayişin qorunmasında 2 il əməkdaşlıq etmiş şəxslərə daxili işlər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

***Əlavə məlumat almaq istəyənlər Bakı Metropolitenində Polis Şöbəsinə (Zərgərpalan küçəsi 135. Metronun "Nizami" stansiyası) müraciət edə bilərlər. Tel: (012) 490-02-36***

## Avqustun 21-dən 27-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 137 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 43 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 110 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 9 nəfər, borclu şəxs qismində axtarışda olan 40 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 10 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 69 fakt müəyyən edilmişdir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Nəqliyyatda Baş Polis İdarəsinin şöbə rəisi
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti iş yoldaşları
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin şöbə rəisi Əli Fəhradova qardaşı
**HÜSEYNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fərhad Süleymanov və Sadiq Gözəlov
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Əli Fəhradova qardaşı
**HÜSEYNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Əli Fəhradova qardaşı
**HÜSEYNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mətanət Xəlilova, Xatirə Məhərrəmova, Günay Yusifli Rəhilə Heydərovaya qardaşı
**ƏLƏDDİN HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti
**AZƏR SADIQOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Ankarada böyük cinayət şəbəkəsinin üstü açılıb. Bu şəbəkə xarici ölkələrə səyahət üçün viza almaq istəyənləri tələyə salıb. Cinayətkar dəstənin 95 üzvü olub. Hazırda bu işlə bağlı məhkəmə prosesi başlayıb və saxlanılanlar üçün 7 min 902 ilə qədər həbs cəzası istənilir.

Məlum olub ki, şəbəkə viza verilməsi proseslərinə rəsmi icazəsi olan səlahiyyətli firmaların saytına bənzəyən veb səhifə açıb. Və bu səhifənin axtarış matorlarında ilk sıralarda yer alması üçün "google"da reklama hər gün 50 min lirə xərcləyib.

Dəstə üzvləri 1128 insanı tələyə salaraq 3 milyon 700 min lirə qazanıb.




Cinayətkar şəbəkənin aldatdığı insanlar arasında tanınmış sənətçilər, həkimlər, hətta vəkillər də var.

*****

"İnterpol" narkotik şəbəkəsinə liderlik edən polşalı Maqdalena Kralkanı axtarışa verib. Polşa polisi onu 2 il ərzində Malopolski və Zaçodniopomorski bölgələrində 65 kiloqram narkotik satmaqda günahlandırır. Polis 30 yaşlı qadının tapılması üçün sosial şəbəkələrdə də elan paylaşıb.

Görünüşcə modelə oxşayan sarı saçlı, yaşıl gözlü Maqdalenın 172 sm. boyu var. Polis onun qaçmasına yardım edəcək şəxsləri 5 il müddətinə həbs gözlədiyini bəyan edib.

*****

Gürcüstanda cinayətkarlıq halları artıb. Bu ilin birinci yarısında ölkədə 33399 cinayət qeydə alınıb. Gürcüstanın Daxili İşlər Nazirliyinin hesabatında deyilir ki, bu il qeydə alınan cinayətlərin sayı 2018-ci illə müqayisədə 5160 fakt və ya 18,27 faiz çoxdur. Hesabat dövründə qeydə alınan cinayətlərin yalnız 10375-nin və ya 31 faizinin üstü açılıb.

Məlumatda bildirilir ki, hesabat dövründə qeydə alınan cinayətlərin 13682-si əmlaka, 6116-sı sağlamlığa zərər vurma, 2738-i isə narkotiklərlə bağlı olub.

Nazirliyin hesabatında, həmçinin bildirilir ki, bu ilin yanvar-iyun aylarında Gürcüstanın dövlət qurumlarında rüşvət alma halları da artıb. Cari ilin birinci yarısında 40 belə fakt qeydə alınıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 42,86 faiz çoxdur.

*****

Gələn aydan başlayaraq, "Lime" skuterlərinin 30 istifadəçisi Brüsselin hakimiyyət orqanlarına paytaxtın daha təhlükəli yol-nəqliyyat kəsişmələrini müəyyən etməkdə yardımçı olacaq.

"Lime" elektrik skuterləri şirkəti və "Vias" yol hərəkətinin təhlükəsizliyi təsisatı tərəfindən şirkətin 30 skuteri düymə ilə təchiz olunacaq. İstifadəçilər təhlükə hiss etdikləri anda, həmçinin qəzanın özünün baş verdiyi halda düyməni basacaqlar.

"Vias" institutu indi paytaxtın çox təhlükəli qovşaqları barədə daha yaxşı təsəvvür yaranacağına, həmçinin skuter istifadəçilərinin digər tələbatlarının daha yaxşı başa düşüləcəyinə inanır.

**C.Natiq**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30